# Murad İsmayilovun "Avtoritar Patriarxiya, İrqçilik və Bilik Böhranı: Qlobal Dini Mühitin "Deradikalizasiyası"na doğru" məqaləsinə cavab

written by Ilkin Huseynli İlkin Hüseynli

Müsəlmanların son bir neçə ildəki radikallaşması və İŞİD (İraq Şam İslam Dövləti)-in meydana çıxması ilə bağlı yazdığı mövqe yazısında Murad İsmayılov bir neçə əsassız iddialar irəli sürərək bildirir ki, bu radikallaşmanın arxasında yalnız üç səbəb dayanır: 1) müsəlmanların dini biliyinin (yetərli dərəcədə) olmaması, 2) Müsəlman Şərqində sosial ədalətin olmaması və 3) sekulyar Qərbdə müsəlmanlara qarşı mövcud olan dözümsüzlük.

Bu cavabımda mənim məqsədim İsmayılovun arqumentlərindəki çatışmazlıqları göstərməkdir. Çünki belə ümid edirəm ki, ətraflı izah və dəlillərlə onları aradan qaldırmaq olar. Bütün müzakirəm yuxarıda qeyd edilən üç məsələ ilə bağlı olacaq və İsmayılovun öz məqaləsində arqumentləri möhkəmlətmək üçün istifadə etdiyi şəxsi hekayələri nəzərə almayacağam.

Məqaləsinin əvvəlində İsmayılov yazır ki, İslam dinini radikallıq ilə əlaqələndirmək "Qərb və postsovet sekulyar mediasının məhsuludur" və bu, həm Qərbdə, həm də müsəlman Şərqində "*elitanın* siyasi gündəliyinə xidmət etmək məqsədi ilə *qurulub*" (vurğu əlavə edilmişdir). Bu cümlənin sonunda müəllif heç bir səhifə göstərmədən öz kitabına istinad verir və yəqin ki, bütün oxucularımız kimi mən də kitabı tapıb oxuya bilmədiyim üçün soruşmaq məcburiyyətindəyəm: Bu elita kimdir? Konkret olaraq bu elitanın siyasi gündəliyi nədir? Necə öyrənə

bilərik ki, İslam və radikallıqla bağlı hazırkı diskurs hansısa bir qrup insan tərəfindən “elitanın siyasi gündəliyinə” *xidmət etmək* məqsədi ilə *qurulub*? Bunlar müdafiəyə ehtiyac duyan çox ciddi ittihamlardır. Müəllif həmçinin eyham vurur ki, İŞİD “Qərbdəki müəyyən güclər tərəfindən yönləndirilən” marionet ola bilər. Buna görə də cavab üçün israr etməkdən başqa seçimim yoxdur: Biz bunu necə bilirik? Qərbdəki bu *müəyyən güclər* kimlərdir, hansılardır? Onların sayı nə qədərdir?

Bu əsassız iddialardan başqa İsmayılovun istifadə etdiyi dil (*xidmət etmək məqsədi ilə qurulub*, *elitanın siyasi gündəliyi* və *Qərbdəki müəyyən güclər*) AzTV-də azərbaycanlı siyasi ekspert və jurnalistlərin Qərb ölkələrində Azərbaycan dövləti əleyhinə planlar quran *xarici qara qüvvələr*, *anti-Azərbaycan mərkəzləri*, *müəyyən xarici dairələr* barədə danışarkən istifadə etdikləri dilə olduqca yaxındır (bax, Novruzov 2018). Bu, başqa bir məqalədə təhlil edilə biləcək maraqlı bir oxşarlıq və ya təsadüfdür.

Daha sonra müəllif iddia edir ki, müsəlman Şərqindəki avtoritar hökumətlər, üstəgəl repressiv ailə strukturu, həmçinin Qərbdə müsəlmanlara qarşı olan irqçilik və qərəzlilik gənc müsəlmanları İŞİD-ə “qoşulmağa vadar” etmişdir. Ən əsası isə İsmayılov iddia edir ki, bu iki faktor olduqca oxşardır, yəni müsəlmanlar üzərində irqçiliyin təsirləri avtoritarizm və repressiv ailənin təsirləri ilə oxşardır. Buna görə də o, Qərbdə müsəlmanlar barədə olan mənfi ictimai rəyi “Qərbdəki müsəlmanların öz aralarında radikalizmin və dözümsüzlüyün artmasının başlıca səbəbi” olaraq xarakterizə edir. Lakin müsəlman Şərqindəki radikallığın səbəbləri ilə bağlı İsmayılovun “sadə izahı” (sadəcə bir qısa paraqraf) düzü bir çox şeyi əslində izah etmir. Məsələn, İraq, Suriya, Çeçenistan, ya da Qazaxıstan kimi ölkələrdəki avtoritarizm, həmçinin patriarxal (və repressiv) ailə strukturunun müsəlmanların radikallaşmasının arxasındakı yeganə səbəb olduğunu iddia etmək nə qədər məntiqlidir? İslam Dövləti qurmaq bu ölkələrdəki avtoritarizm və repressiv ailəyə verilə

biləcək yeganə mümkün reaksiya ola bilməz. Məsələn, İraq, Suriya və Qazaxıstadakı qeyri-müsəlman əhali niyə öz ölkələrindəki dövlət avtoritarizminə və repressiv ailə strukturuna eyni cür reaksiya vermir? Niyə onlar da öz (sünni) müsəlman həmvətənləri qədər radikal olmurlar? Niyə bəzi müsəlmanlar İŞİD-ə qoşuldu amma digərləri qoşulmadı? Müsəlman qadınların dövlət avtoritarianizminə və Qərbdəki irqçiliyə reaksiyası necə oldu? Əlavə olaraq, güman edirəm ki, müsəlmanlar Qərbdə irqçilik və qərəzliliklə qarşılaşan yeganə qrup deyil; lakin digər əzilən qruplar da Qərbdəki "simvolik zorakılığa" ən azı müvafiq reaksiya verirlərmi?

İsmayılov həm də iddia edir ki, hətta Qərbdəki elmi çevrələrdə də din və İslam əleyhinə mənfi rəy mövcuddur. İddiasını müdafiə etmək üçün o, altı ölkədən (Kanada, Çin, İordaniya, Türkiyə, ABŞ və Cənubi Afrika Respublikası) olan 5-12 yaş aralığındakı 1170 uşağın iştirakı ilə Çikaqo Universitetində nevroloq alim Cen Diseti və onun həmkarları tərəfindən aparılmış araşdırmaya istinad verir. Bu araşdırma belə bir nəticəyə gəlir ki, dindar ailələrdə böyümüş uşaqlar sekulyar ailələrdə böyümüş uşaqlarla müqayisədə daha aqressiv və radikal olmağa meyillidirlər. Maraqlıdır ki, qətiyyən heç bir dəlil irəli sürmədən İsmayılov yazır ki, "bu bəyanat göründüyü kimi bir çox sekulyarın özlərinin din (və *xüsusilə də İslam*) haqqında dinin və dindarlığın daxilən pis və arzuedilməz fenomen olmasına dair əvvəlcədən qəbul etdikləri fikirlərə 'elmi' don geyindirmək *məqsədilə hazırlanıb*" (vurğu əlavə edilmişdir). İndi biz bunu haradan bilirik? İsmayılov araşdırmanın müəlliflərinin *niyyətini* müəyyən etmək üçün hansı vasitələrdən və ya metodlardan istifadə edir? Ya da bu eyhamı araşdırmanın nəticəsindən necə çıxara bilir? İsmayılov necə bilir ki, araşdırmanın müəllifləri xüsusi olaraq İslamın daxilən pis olması *məqsədini güdüblər*? Bu araşdırma yeddi alim (Cen Diseti, Ceyson Kouell, Kanq Li, Randa Mahasnes, Suzan Malkolm-Smit, Bilgə Səlcuk və Xunyue Zou) tərəfindən aparılıb və gərək İsmayılov göstərsin ki, bu alimlərin ən azından bəziləri məqsədli şəkildə dini və ələlxüsus da İslamı mənfi

təqdim etmək niyyətində olublar.

Hansısa bir araşdırmanı təhlil edən istənilən şəxs gərək birinci növbədə araşdırma müəlliflərinin iddia edilən niyyətindənsə, onların istifadə etdikləri metodologiya ilə maraqlansın. Lakin İsmayılov istinad etdiyi araşdırmanın metodoloji və ya statistik problemləri barədə heç nə demir. Onda, icazə verin soruşum: Bu araşdırmanın metodologiyasında nəsə problem var? Ya da müəlliflərin istifadə etdikləri tədqiqat dizaynı problemlidirmi? Əgər İsmayılov araşdırmada uşaqlara verilən sualları təhlil edibsə, həmin suallarda nəsə problem müəyyən edibmi? Nevroloq alimlər və digər əlaqəli elm adamları arasında bu araşdırmanı tənqid edən olubmu və olubsa, onda konkret hansı səbəblərlə? Bu araşdırmanın statistik analizində/hesablamasında nəsə xəta varmı? Bəlkə Diseti və onun həmkarları dini mənfi təqdim etmək niyyəti güdmədən bu nəticəni tapıblar; onda İsmayılov hansı *dəlil* əsasında onları ittiham edir? Bəlkə də İsmayılov düz deyir, amma bizə iddiasını əsaslandırmaq üçün *heç bir* dəlil göstərməyib.

Sonra İsmayılov müsəlmanlar arasında dini cahilliyin problemlərini və onun müsəlmanların radikallaşmasındakı təsirlərini müzakirə edir. Onun arqumenti budur ki, İslam dinində daxili olaraq heç bir radikallıq yoxdur və öz dinləri barədə cahil olduqlarına görə müsəlmanlar “manipulyasiya üçün asan qənimətə çevirilib” radikalizmə yuvarlanırlar. Bu mövzu mənim sahəm olmadığından, müsəlmanlar öz dinləri barədəki cahillik səviyyələri və konkret olaraq bu cahilliyin onların radikallaşmasında necə rol oynaması barədə aqnostik qalıram. Qoy bu mövzunu başqaları müzakirə etsin.

İsmayılovdan xahiş etmək istərdim ki, müsəlman Şərqindəki avtoritar hökumətlər “modernliyi özlərini legitimləşdirən inanc kimi qəbul ediblər” deyəndə konkret olaraq nəyi nəzərdə tutduğunu da bildirsin? Və bu ölkələr hansılardır (məs. İraq, Səudiyyə Ərəbistanı, İran, ya da Pakistan)? Onların sayı neçədir? Əlavə olaraq, o, iddia edir ki, Qərb kontekstində (…) modernlik və istehlakçılıq populyar dinə (və ictimai nəzarətin

əsas məntiqinə) çevrilib.” Bu, heç bir dəlil təqdim edilmədən irəli sürülmüş güclü iddiadır. Birinci, əgər modernlik və istehlakçılıq din hesab edilirsə, onda İsmayılovun dinə verdiyi tərif nədir? Həmçinin, necə bilirik ki, modernlik və istehlakçılıq Qərbdə populyar dinə çevrilib? Hansı dəlilə əsaslanaraq bu iddianı müdafiə edə bilərik? Necə bilirik ki, bu “populyar din” özü “ictimai nəzarətin əsas məntiqinə” çevrilib? Hansı dəlilə əsaslanaraq bu iddianı müdafiə edə bilərik?

Eyni yarımbaşlıq altında müəllif “müqəddəs bilik” və “epistemoloji ayrılıq” qeyd edir. Birinci, müqəddəs bilik nədir? Müqəddəs biliyin neçə növünü müəyyən etmək olar? Müqəddəs bilik ilə müqəddəs olmayan (onun sözü ilə “maddi”) bilik arasındakı fərqlər nələrdir? Əgər bu gün mən müqəddəs kitabı olan öz dinimi yaratsam və bir neçə adam mənə iman etsə, mənim yenicə yazılmış müqəddəs kitabım da müqəddəs bilik (və ya müqəddəs biliyin formalarından biri) hesab ediləcəkmi? İkinci, bu epistemoloji ayrılıq da izah tələb edir. Bu nədir və nə üçün meydana gəlir?

Son olaraq qeyd etməyi özümə borc bilirəm ki, müsəlmanları İŞİD kimi təşkilatlara qoşulmağa vadar edən üç faktoru saymaqla İsmayılov radikal təşkilatlara qoşulan həmin fərdlərin məsuliyyətini müzakirə etmir. Hesab edin ki, mən cahil bir müsəlman və ənənəvi, repressiv ailədə yaşayan avtoritar bir ölkənin vətəndaşıyam. Bu səbəblərə görə İŞİD-ə qoşulmağa qərar verirəm. İndi birinci kimi qınamaq lazımdır? Ya da hesab edin ki, mən Almaniyada yaşayan birinci nəsil mühacirəm və hər gün irqçiliklə üzləşirəm. Buna görə də əsəbləşirəm və İŞİD-ə qoşulmağa qərar verirəm. Yenə də birinci kimi qınamaq lazımdır? Heç kim mənim alnıma silah dayayıb dini cahilliyimi aradan qaldırmaq üçün Quran oxumağıma əngəl yaratmır. Oxşar olaraq, bir çoxları məni manipulyasiya etməyə çalışa bilər, amma yetkin bir insan kimi birinci növbədə *öz hərəkətlərim və qərarlarıma görə mən məsuliyyət daşıyıram*. Və ya mən həqiqətən də dini görüşlərimə görə ictimaiyyətin mənfi rəyi ilə rastlaşa bilərəm, lakin bu mənə radikallaşmaq, ya da

terrorist təşkilatlara qoşulmaq üçün qətiyyən bir səbəb verməz. Kimsə etiraz edə bilər ki, radikallaşmış müsəlmanın fərdi məsuliyyətini vurğulamaq İsmayılovun məqaləsinin arqumentinə heç bir töhfə vermir. Lakin, siyasi fəlsəfə tələbəsi olaraq israrla qeyd etməliyəm ki, bir problemi təhlil edərkən bütün iştirakçıları və onların məsuliyyətini öz xəritəmizdə aydın şəkildə qəbul etməliyik ki, hər bir iştirakçının payına düşən məsuliyyətini müəyyən edə bilək.

https://bakuresearchinstitute.org/az/authoritarian-patriarchy-racism-and-the-crisis-of-knowledge-towards-a-de-radicalization-of-the-global-religious-space/